# Yersinioz



Yersinia bakteriyaları tərəfindən törədilən kəskin infeksion xəstəlik olub, mədə-bağırsaq traktını, bəzən digər toxuma və orqanları zədələyir.

Yersinioz infeksiyasının mənbəyi kiçik gəmiricilərdir.



Gəmiricilərin ifrazatları ilə torpağın, suyun, ərzaq məhsullarının çirklənməsi nəticəsində başqa heyvanların və insanların da yoluxması baş verir. İnsan üçün yersiniozun əsas daşıyıcıları gəmiricilər, itlər, pişiklər, donuzlar, qaramal, quşlar, dovşanlar və başqalarıdır. İnsan heyvanlardan yalnız təmas-məişət yolu ilə deyil, həm də çox hallarda daha geniş yayılan fekal-oral yolla (daha doğrusu, heyvanların ifrazatı ilə çirklənmiş su və qidadan istifadə zamanı) yoluxur. Yersinioz törədiciləri müxtəlif qida məhsullarında-qənnadı məmulatlarında və çörəkdə, süddə, kərə yağında, tərəvəzlərdə uzun müddət yaşayaraq artıb çoxala bilər.

Yersiniya bakteriyaları ilə çirklənmiş məhsulun soyuducuda saxlanması yoluxmanın qarşısını almır. Xəstəliyə bütün yaşlarda tə-sadüf edilir. Yersiniozun simp-tomları yoluxmuş şəxsin yaşın-dan asılı olaraq dəyişə bilər. Kiçik yaşlı uşaqlar daha çox xəstələnir, onlarda ümumi simptomlar: yüksək hərarət, qarın ağrısı və ishal, bəzi hallarda qanlı ishal müşahidə olunur.

Tək-tək və qrup şəklində xəstələnmələr baş verə bilir. Dəri səpgisi, oynaq ağrısı və ya bakteriyaların qan dövranına yayılması kimi fəsadlar ola bilər.

Eyni mətbəxdən istifadə edən kollektivlərdə, hərbi hissələrdə, uşaq bağçalarında, internat məktəblərində xəstəlik geniş yayıla bilər.



## *Yersiniozun inkubasion dövrü*

İnkubasion dövrü 1-6 gün çəkir. Xəstəlik intoksikasiya əlamətləri ilə kəskin başlayır.

Dərhal üşütmə, subfebril temperatur (bəzən 38-40$^{0}$C), zəiflik, baş ağrısı, sümüklərdə, əzələ və oynaqlarda ağrı əlamətləri olur.

Xəstəliyin ilk günlərindən mədə-bağırsaq traktı və ya onun ayrı-ayrı hissələrinin zədələnməsi, ürəkbulanma, qusma, qarında tutmaşəkilli ağrılar olur.

Ağrı mədə nahiyəsində, göbək ətrafında, sağ qalça çuxurunda, sağ qabırğa altında hiss edilir.





## *Yersiniozun profilaktikası*

Bağırsaq infeksialarında olduğu kimidir. Ərzaq məhsullarının daşınması və istifadəsi, onlardan müxtəlif xörəklərin hazırlanması zamanı sanitariya-gigiyena qaydalarına ciddi əməl edilməlidir.



Meyvə-tərəvəz anbarlarının təmizliyi, məhsulların düzgün saxlanması, gəmiricilərə qarşı mübarizə böyük əhəmiyyət kəsb edir.

Yersiniozun yayılmasında xəstələr və rekonvalessentlər müəyyən qədər rol oynadıqlarına görə, onları vaxtında aşkar etmək və xəstəxana şəraitində müalicə etmək lazımdır.

«Respublika Gigiyena və Epidemiologiya Mərkəzi» PHŞ

# YERSİNİOZ